Yap Qəbələ Rayon Təşkilatı– 2013-cü ilin yekunları, 2014-cü ilin vəzifələri

Ümummilli lider Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası və onun qabaqcıl dəstələrindən olan Qəbələ Rayon Təşkilatı üçün daha bir uğurlu il— 2013-cü il tarixə qovuşdu.

2013-cü ildə yaranmasının 20 illiyini qeyd edən Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı ötən ildə də Azərbaycan Respublikası Konstitusiyası və siyasi partiyalarla əlaqədar qanunvericilik çərçivənsində, partiyanın Proqram və Nizamnaməsi əsasında fəaliyyət göstərmişdir.

Rayon Təşkilatının 2013-cü il üçün geniş iş planı təsdiq edilmiş və həmin iş planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görülmüşdür.

İlin əvvəlindən başlayaraq rayondakı bütün ərazi ilk təşkilatlarında Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən guşələr daha da zənginləşdirilmiş, ulu öndərin dövlətçilik siyasətinin daha geniş təbliği istiqamətində tədbirlər həyata keçirilmişdir.

Yeni Azərbaycan Partiyası Rayon Təşkilatı, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri möhtərəm cənab İlham Əliyevin Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi, regionların inkişafı Dövlət Proqramlarının həyata keçirilməsi istiqamətində qarşıya qoyduğu vəzifələri, daxili və xarici siyasət xəttini partiya üzvlərinə, eləcə də bütün əhaliyə çatdırmaq məqsədilə ardıcıl və məqsədyönlü iş aparmışdır.

Yeni Azərbaycan Partiyası Rayon Təşkilatı qadınların və gənclərin cəmiyyətdə rolunu artırmaq üçün daim tədbirlər görür. 2013-cü ildə Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Qadınlar Təşkilatı sədrinin hesabatı dinlənilmiş, şuranın tərkibi yenilənmişdir. Əlaqədar təşkilatlarla birlikdə qadın və ailə problemlərinə aid tədbirlər təşkil olunmuş, Ombudsman Elmira Süleymanova, eləcədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova ilə rayon qadınlarının görüşləri təşkil olunmuşdur.

Rayon təşkilatı gənclər arasında ideya siyasi işi gücləndirmək məqsədilə müxtəlif tədbirlər həyata keçirmişdir. Ötən ilin may ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyi münasibətilə Yeni Azərbaycan Partiyası gənclərinin mini futbol üzrə rayon və zona yarışları keçirilmişdir.

İyul ayında isə Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərovun təşəbbüsü və iştirakı ilə region gəncləri və ağsaqqallarının nümayəndələrinin görüşü keçirilmişdir.

2013-cü ilin aprel-may aylarında Yeni Azərbaycan Partiyası Rayon Təşkilatında və ərazi təşkilatlarında ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyi münasibətilə silsilə tədbirlər keçirilmişdir. Ötən il həm də Yeni Azərbaycan Pariyasının yaranmasının 21-ci, Rayon Təşkilatının yaranmasının 20-ci ildönümləri qeyd olunmuşdur.

Yola saldığımız 2013-cü ildə Yeni Azərbaycan Partiyasının, eləcə də Rayon Təşkilatının həyatında ən mühüm hadisə 9 oktyabrda keçirilən Azərbaycan Respublikası Prezidentinin Seçkiləri olmuşdur. Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Respublika Prezidenti seçkiləri ilə əlaqədar öz fəaliyyətini "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Seçki Məcəlləsinə və partiyanın nizamnaməsinə uyğun şəkildə qurmuşdur. Bu sənədlər çərçivəsində üzərinə düşən vəzifələri seçkinin bütün mərhələlərində uğurla yerinə yetirmişdir. Nəticədə respublikamızın hər yerində olduğu kimi Qəbələ rayonunda da Azərbaycan Respublikası Prezidentliyinə Yeni Azərbaycan Partiyasının namizədi möhtərəm cənab İlham Əliyev seçicilərin çox yüksək fəallığı şəraitində böyük səs fərqi ilə qalib gələrək yenidən ölkə Prezidenti seçilmişdir. Möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə, o cümlədən rayonumuzda həyata keçirilən çox nəhəng sosial-iqtisadi layihələr, düzgün qurulmuş xarici siyasət xalqın məhəbbəti və rəğbəti bu parlaq qələbənin əsas təkanverici qüvvəsi olmuşdur.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının 2014-cü ildə də qarşısında çox böyük vəzifələr durur. Bu ilin payızında ölkəmizdə növbəti bələdiyyə seçkiləri keçiriləcəkdir. Bu seçkilərdə Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı əvvəlki seçkilərdən də uğurlu nəticələr əldə etmək üçün fəallığını günügündən artırır.

Abil AĞASƏFOV,
YAP Qəbələ Rayon Təşkilatının sədri.

20 Yanvar faciəsi Azərbaycan xalqının qəhrəmanlıq salnaməsidir

Ayrı-ayrı ölkələri işğal və əsarət altında saxlayan imperiyalar nə qədər güclü olsalar belə, qılınc və zor gücünə birləşdirilmiş xalqlar tarixin bu və digər mərhələsində azadlıqları uğrunda mübarizəyə qalxır, suverenliklərini əldə edərək öz dövlətlərini qururlar. İmperiyanın süqutunu görən rəhbərlər belə olan halda prosesin qarşısını almaq üçün bütün vasitələrdən istifadə edir, hətta qan axıtmaqdan, zor tətbiq etməkdən belə çəkinmirlər.

1990-cı ilin 19-20 yanvarında Bakıda törədilmiş qətliamlar da bu qəbildən idi. Tarixin sınağından uğursuz çıxmış kommunizm xülyasının iflasa uğramasının fərqinə varmayan SSRİ rəhbərliyi ötən əsrin 80-ci illərinin sonlarında milli azadlıq hərəkatına qalxmış Azərbaycan xalqının əzmini qırmaq üçün ən qəddar üsullardan istifadə edərək tarixin böyük faciələrindən birini törətdi. Nəticədə yüzlərlə insan şəhid, əlil və şikəst oldu. Lakin milli azadlıq uğrunda mübarizəyə qalxanlar öz məqsədlərinə--Azərbaycanın müstəqilliyinin əldə edilməsinə nail oldular.

Bakıda törədilən qanlı qırğından sonra onu və doğmalarını izləyən ağır təhlükələrə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyev İttifaq mərkəzinin Bakıda törətdiyi vəhşiliyə qarşı kəskin bəyanat verdi. M. Qorbaçovun birbaşa göstərişi ilə tökülən qanlara etiraz etdiyini, insanların azadlıq istəyinin məhv olunmasının mümkünsüzlüyünü söylədi. Bu təkcə Azərbaycan xalqına deyil, SSRİ məkanında azadlıq eşqi ilə yaşayan bütün xalqlara dəstək idi.

Ulu öndər Heydər Əliyevin həmin bəyanatı dünya miqyasında geniş əks-səda doğurdu. Bu dahi insanın M. Qorbaçovun ünvanına söylədiyi ittihamlar təkcə Bakıda deyil, Tbilisi, Vilnüs, Riqa və digər şəhərlərdə də hörmət və ehtiramla qarşılanmış, ulu öndərimizin bu aydın mövqeyi o dövrün siyasi tələtümlərindən çaşqın vəziyyətə düşən milyonlarla insan üçün zəruri bir istiqamətə çevrilmişdi. Heydər Əliyev eyni zamanda Sov.İKP sıralarını da tərk etdi və Azərbaycan xalqının ən çətin anlarında Moskvadan doğma vətəninə qayıtmağı vacib saydı. Heydər Əliyev 1990-cı ilin iyulun 20-də təyyarə ilə Bakıya gəldi və iki gün sonra isə Naxçıvana getdi.

Azərbaycanın siyasi tarixində özünə parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda deputat, sonralar muxtar respublikanın rəhbəri kimi fəaliyyət göstərməsi buradan başlanan müstəqillik yolunun, bütövlükdə Azərbaycanın siyasi mühitində aparıcı istiqamətə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Sənəddə 20 Yanvar faciəsinə respublika səviyyəsində siyasi-hüquqi qiymət verilməsi ölkə rəhbərliyindən tələb edilirdi. Çox-çox təəssüflər olsun ki, nə A. Mütəllibov iqtidarı, nə də AXC-Müsavat cütlüyü faciəyə siyasi qiymət vermək üçün əməli addımlar atmadılar. Həmin dövrdə hadisəyə siyasi-hüquqi qiymət verilməsi üçün lazımi işlər görmək mümkün idi.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Bununla da, ulu öndər Heydər Əliyevin qətiyyəti və ardıcıl mübarizəsindən sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verildi.

Ümummilli lider 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi və onların ailələrinə dövlət qayğısının gücləndirilməsini daim diqqətində saxlayırdı. Heydər Əliyev hər il yanvar ayının 20-də şəhidlər xiyabanını ziyarət edir, şəhid ailələri ilə görüşərək onların problemləri ilə maraqlanır, həlli ilə bağlı müvafiq göstərişlərini verirdi.

Hər il olduğu kimi, bu il də 20 Yanvar faciəsinin ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilib. Sənəddə Azərbaycanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda faciənin ildönümünə həsr olunmuş tədbirlərin—konfrans, yığıncaq və mühazirələrin keçirilməsi, bu tədbirlərin mətbuatda ətraflı işıqlandırılması, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Azərbaycan xalqı öz qəhrəman övladlarının əziz xatirəsini daim uca tutur və dərin ehtiramla yad edir və bundan sonra da müstəqillik uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi unudulmayacaqdır.

Oqtay MƏMMƏDOV.